

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

Qəzet 1921-ci ildən çıxır

# ŞƏRQ qapısı

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 130 (21.540)

16 iyul 2016-cı il, şənbə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 15-də Türkiyə Respublikasının xarici işlər naziri Mövlud Çavuşoğlunun başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

Bu yaxınlarda Varşavada Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanla görüşünü və ikitərəfli münasibətlərimizin daha da möhkəmləndirilməsi ilə bağlı danışmaq fürsəti əldə etdiklərini məmnunluqla vurğulayan dövlətimizin başçısı ölkələrimiz arasında əlaqələrin bütün istiqamətlərdə uğurla inkişaf etdiyini deyib. Prezident İlham Əliyev Türkiyənin Baş naziri Binəli Yıldırımın ilk xarici səfərinin Azərbaycana etməsinin önəmini də qeyd edib. Birgə layihələrin vaxtında icra olunmasına toxunan dövlətimizin başçısı Azərbaycan-Türkiyə birliyinin və dostluğunun getdikcə daha da möhkəmləndiyini və artıq bir çox sınaqlardan çıxdığını qeyd edərək bildirib ki, xalqlarımız və digər ölkələr bu birliyin və qardaşlığın möhkəm və sarsılmaz olduğunu görürlər.

Türkiyə Respublikasının xarici işlər naziri Mövlud Çavuşoğlu Türkiyə ilə Rusiya arasında əlaqələrin düzəlməsində verdiyi güclü dəstəyə görə ölkəsi və xalqı adından Prezident İlham Əliyevə minnətdarlığını bildirib. Türkiyənin xarici işlər naziri son vaxtlar Azərbaycan iqtisadiyyatının şaxələndirilməsi istiqamətində atılan addımların yaxşı nəticələr verdiyini deyib və bu uğurların ölkəsində sevinclə qarşılandığını qeyd edib.

## Kəngərli rayonunda seminar-müşavirə keçirilib



***Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyi Kəngərli rayonunda inzibati ərazi dairəsi üzrə nümayəndəliklər tərəfindən doğum, nikah və ölüm qeydiyyatı zamanı qanunvericiliyin tələblərinə riayət olunması ilə bağlı seminar-müşavirə keçirib.***

Tədbiri giriş sözü ilə Kəngərli Rayon İcra Hakimiyyətinin başçısı Kamal Ələkbərov açıb.

Seminar-müşavirədə Naxçıvan Muxtar Respublikasının ədliyyə naziri, II dərəcəli dövlət ədliyyə müşaviri Suliddin Əliyev məruzə edərək bildirib ki, ümummilli liderimiz Heydər Əliyevin 2002-ci il 31 iyul tarixli Fərmanına əsasən, rayon mərkəzindən kənarda yerləşən qəsəbə və kənd sakinləri üçün daha münasib şəraitin yaradılması, onların rahatlığının təmin edilməsi, doğum, nikah və ölüm qeydiyyatının daha operativ həyata keçirilməsi məqsədilə nikahın, doğumun və ölümün dövlət qeydiyyatını rayon (şəhər) qeydiyyat şöbələri ilə yanaşı, icra hakimiyyətlərinin nümayəndəlikləri aparır.

Muxtar respublikamızın bütün rayonlarında yerli icra nümayəndəlikləri üçün yeni inzibati binalar tikilib və müasir standartlara uyğun iş şəraiti yaradılıb. Məhz bu diqqət və qayğı nəticəsində Kəngərli rayonunun icra nümayəndəlikləri də müasir inzibati bina və iş şəraiti ilə təmin olunublar.

Qeyd olunub ki, yaradılan bu şərait icra nümayəndələrinin üzərinə mühüm vəzifələr qoyur. Hər bir icra nümayəndəsi "Dövlət rüsumu haqqında" Azərbaycan Respublikası Qanununun, Azərbaycan Respublikasının Ailə Məcəlləsinin, notariat haqqında qanunun və kargüzarlıq qaydalarını müəyyən edən təlimatın tələblərinə əməl etməli və vətəndaşlıq vəziyyəti aktları qeydə alınmasına görə dövlət rüsumu ödənildikdən sonra müvafiq əməliyyatı rəsmiləşdirməlidir. Xüsusilə nikah qeydiyyatı ilə bağlı könüllülük prinsipi daim diqqətdə saxlanılmalı, vətəndaşların şəxsən iştirakı təmin edilməli və nikah qeydiyyatı üçün müraciət etmiş vətəndaşların ərizəsi qəbul edilən zaman tibbi müayinə arayışlarının alınması təmin olunmalıdır. Hər bir icra nümayəndəsi tərəfindən notariat hərəkətlərinə görə qəbul edilmiş dövlət rüsumu iki bank günü ərzində dövlət büdcəsinə köçürülməli, notariat əməliyyatı zamanı vətəndaşların şəxsən iştirakı təmin edilməlidir.

Sonda seminar-müşavirə iştirakçılarını maraqlandıran suallar cavablandırılıb.

Tədbirə Kəngərli Rayon İcra Hakimiyyətinin başçısı Kamal Ələkbərov yekun vurub.

✍ Kərəm HƏSƏNOV

## Cari ilin ötən dövründə verilmiş kreditlər aqrar sahənin inkişafı ilə yanaşı, ənənəvi istehsal və kiçik emal sahələrinin yaradılmasında stimul olub

***Müasir bazar iqtisadiyyatı şəraitində kreditlərin verilməsi nəticəsində iqtisadiyyatın ayrı-ayrı sahələrinin maliyyələşdirilməsi məhz bank sektorunun iqtisadiyyatın inkişafında rolunun əsas göstəricisidir.***

Banklar tərəfindən kənd təsərrüfatı sahələrinə verilən güzəştli kreditlər həmin sahədə istehsalın artımına, istehsal olunmuş məhsulların ixracına, məşğulluğun artırılmasına, aqrar sektorun və onunla əlaqədar olan digər sahələrin (yeyinti, yüngül sənaye sahələrinin) inkişafına birbaşa və dolayı təsir edir. Bundan əlavə, banklar tərəfindən verilən kreditlərlə müxtəlif müəssisələrin yaradılması istehsalın həcminin artmasına, əhalinin məşğulluğunun təmin olunmasına, nəticədə, dövlət büdcəsinə vergi daxilolmalarının artmasına təsir edir.

Mərkəzi Bankın Naxçıvan Muxtar Respublikası İdarəsindən aldığımız məlumata görə, muxtar respublikada fəaliyyət göstərən banklar və kredit təşkilatları tərəfindən 1 iyul 2016-cı il tarixə iqtisadiyyata yönəldilən kredit qoyuluşu 114 milyon 171 min manat, o cümlədən qısamüddətli kredit qoyuluşu 12 milyon 371 min manat, uzunmüddətli kredit qoyuluşu isə 101 milyon 800 min manat təşkil edib. Kredit qoyuluşu keçən ilin müvafiq dövrü ilə müqayisədə 5 milyon 617 min manat azalıb. Azalma cari dövrdə yığılmış vaxtı keçmiş kredit borcları hesabına olub.

Mərkəzi Bankın kreditləşmədə əsas məqsədi aqrar sektorun inkişafı, ixraca yardım və daxili bazarın müdafiəsi, kiçik və orta sahibkarlığın inkişafına nail olmaqdır. Eyni zamanda muxtar respublika əhalisinə verilmiş 10 milyon 125 min manat məbləğində şəxsi istehlak kreditləri, daşınmaz əmlak alınması üçün 9 milyon 49 min manat məbləğində verilmiş ipoteka kreditləri vasitəsilə vətəndaşların şəraitinin yaxşılaşdırılması ilə bərabər, real sektor da dəstəklənib.

Kredit qoyuluşu, əsasən, dövlət proqramlarının icrasına, real sektorun, kiçik və orta sahibkarlığın inkişafına yönəldilib ki, bu da kənd təsərrüfatı, yerli sənaye və istehlak malları istehsalının həcminin artması və yeni iş yerlərinin yaranmasında əhəmiyyətli rol oynayıb.

Bank və kredit təşkilatları tərəfindən 2016-cı ilin ilk 6 ayı ərzində 20 milyon 411 min manat kredit verilib ki, bunun da 6 milyon 805 min manatını qısamüddətli, 13 milyon 606 min manatını isə uzunmüddətli kredit təşkil edir. Verilmiş kreditin 7 milyon 234 min manatı kənd təsərrüfatı, 370 min manatı sənaye, 75 min manatı tikinti, 2 milyon 181 min manatı kommersiya, 3 milyon 617 min manatı nəqliyyat sahələrinə, 721 min manatı daşınmaz əmlakla əlaqədar ipoteka kreditlərinin verilməsinə, 6 milyon 203 min manatı digər kommunal, sosial və istehlak kreditlərinin verilməsi kimi sahələrə yönəldilib.

"2014-2018-ci illərdə Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafı üzrə Dövlət Proqramı"nda banklar qarşısında qoyulan vəzifələrin icrası ilə əlaqədar müvafiq işlər görülüb. 2016-cı ilin 6 ayı ərzində verilmiş kreditlərin 35,4 faizini və ya 7 milyon 233 min manatını kənd təsərrüfatı kreditləri təşkil edir. Kənd təsərrüfatı kreditləri aqrar sahənin inkişafı ilə yanaşı, ənənəvi istehsal və kiçik emal



sahələrinin yaradılmasında stimul olub.

Bu kreditlər, əsasən, prioritet sayılan və muxtar respublikada qəbul edilmiş dövlət proqramlarının icrasına uyğun olaraq istehsal proseslərinin təmin edilməsi üçün çoxsaylı komponentlərə – toxum və əkin materiallarının, kiçik emal avadanlıqlarının alınmasına, digər aqrotexniki tədbirlərin aparılmasına, heyvandarlığın inkişafına verilib.

Verilmiş kreditlərin 41,1 faizini kiçikhəcmli kreditlər təşkil edir. Gələcəkdə bu cür kreditlərin verilməsinin həcminin artırılması istiqamətində lazımi iş aparılır.

2016-cı ilin 6 ayı ərzində banklara 27 milyon 404 min manat kredit borcu qaytarılıb. Vaxtı keçmiş kredit borclarının yığılması işi sürətləndirilərək cari ilin birinci yarısında Sahibkarlığa Kömək Fondu vəsaitlərindən 3 milyon 555 min manat vaxtı keçmiş kredit borcları yığılıb. Bu sahədə müəyyən irəliləyişlərə nail olunsa da, 12 milyon 7 min manat vaxtı keçmiş kredit borcları mövcuddur. Vaxtı keçmiş borcların 11 milyon manatını Sahibkarlığa Kömək Fondunun vəsaitləri hesabına, 1 milyon 7 min manatını bank və bank olmayan kredit təşkilatlarının vəsaiti hesabına verilmiş kreditlər təşkil edir.

✍ Rauf ƏLİYEV

***Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondu əhalinin sosial təminatının yaxşılaşdırılması məqsədilə ardıcıl tədbirlər görür. Tapşırıqların vaxtında yerinə yetirilməsini diqqət mərkəzində saxlayan kollektiv 2016-cı ilin ötən dövründə əmək pensiyalarının maliyyələşdirilməsini vaxtından əvvəl başa çatdırmış, 60 milyon 482 min 150 manat vəsait pensiyaçıların şəxsi hesablarına köçürülmüşdür.***

## Muxtar respublikada 2016-cı ilin birinci yarısında pensiyalar vaxtında ödənilmişdir

Bu dövrdə pensiya hüququ yaranmış 1380 vətəndaşa əmək pensiyası təyin olunmuşdur. Yeni təyin olunan əmək pensiyaçılarına plastik kartların verilməsi və istifadə müddəti başa çatan plastik kartların yeniləri ilə əvəzlənməsi üçün müvafiq müvəkkil banklara 14 min 160 plastik kart hazırlanması üçün sifariş verilmişdir.

Azərbaycan Respublikası Prezidentinin "Yaşa görə əmək pensiyasının baza hissəsinin artırılması haqqında" 2016-cı il 16 yanvar tarixli və "Əmək pensiyalarının sığorta hissəsinin indeksləşdirilməsi haqqında" 2016-cı il 25 yanvar tarixli sərəncamlarının icrası üçün müvafiq tədbirlər həyata keçirilmiş, pensiyaların artımlar nəzərə alınmaqla ödənilməsi təmin edilmişdir. Həmçinin qeyd olunan dövrdə Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondu tərəfindən elektron sənəd mübadiləsinin daha da təkmilləşdirilməsi, informasiya-kommunikasiya texnologiyalarının tətbiqi nəticəsində idarəetmənin səmərəliliyinin artırılması istiqamətində tədbirlər görülmüşdür.

***Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondunun mətbuat xidməti***

## 627 vətəndaşa məxsus kənd təsərrüfatı bitkiləri sığortalanmışdır

Naxçıvan Muxtar Respublikası Dövlət Baş Sığorta Agentliyi tərəfindən 2016-cı ilin birinci yarısında sığorta mədəniyyətinin inkişaf etdirilməsi və kütləviliyinin təmin olunması sahəsində ardıcıl tədbirlər görülmüşdür. Muxtar respublikanın təhsil, səhiyyə, mədəniyyət, tikinti və sahibkarlıq subyektlərində icbari və könüllü sığortanın əhəmiyyəti barədə maarifləndirmə tədbirləri aparılmış, istehsalatda bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində əmək qabiliyyətinin itirilməsi hallarından icbari sığorta işinə diqqət artırılmışdır. Rayonlardakı Dövlət Sığorta agentlikləri isə yerli icra hakimiyyətlərinin nümayəndələri ilə birlikdə kəndlərdə maarifləndirmə tədbirlərini davam etdirmiş, sakinlərə sığortanın növləri, əhəmiyyəti və şərtləri barədə ətraflı məlumat vermişdir.

İcbari sığortanın mühüm növlərindən biri də avtonəqliyyat vasitəsi sahiblərinin mülki məsuliyyətinin icbari sığortasıdır. Muxtar respublikanın iqtisadi inkişafına paralel olaraq nəqliyyat vasitələrinin sayının durmadan artması bu sahədə işlərin genişləndirilməsini şərtləndirmişdir. Buna görə də Dövlət Yol Polisi əməkdaşları ilə birlikdə mütəmadi reydlər keçirilmiş, nəqliyyat vasitələri icbari sığortaya cəlb olunmuşdur. Ötən dövrdə kənd təsərrüfatı bitkilərinin sığortası ilə əlaqədar vətəndaşlar arasında izahat işi aparılmış, bu sığorta növünün mahiyyəti diqqətə çatdırılmışdır. Görülən işlərin nəticəsidir ki, sahibkarların sığortanın bu növünə olan marağı getdikcə artmaqdadır. Belə ki, 2016-cı ilin 6 ayında 627 vətəndaşa məxsus kənd təsərrüfatı bitkiləri sığortalanmışdır. Hazırda bu sahədə işlər davam etdirilir.

Qeyd olunan dövrdə vətəndaşlar tərəfindən Naxçıvan Muxtar Respublikası Dövlət Baş Sığorta Agentliyinə daxil olan müraciətlərə də vaxtında cavab verilmişdir.

***Naxçıvan Muxtar Respublikası Dövlət Baş Sığorta Agentliyinin mətbuat xidməti***

***Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev 2011-ci il sentyabrın 2-də “Naxçıvan Muxtar Respublikasının Culfa və Kəngərli rayonlarının sosial-iqtisadi inkişafının sürətləndirilməsinə dair əlavə tədbirlər haqqında” Sərəncam imzalamışdı. Beş il bundan əvvəl imzalanmış sərəncamda Culfa rayonunda 20 kənd yaşayış məntəqəsini birləşdirən, uzunluğu 57,6 kilometr, Kəngərli rayonunda 5 kəndi əhatə edən, uzunluğu 39,2 kilometr olan avtomobil yollarının yenidən qurulması nəzərdə tutulmuşdu. Ötən dövrdə adıçəkilən avtomobil yolları yenidən qurularaq istifadəyə verilib. Ötən yazılarımızın birində Çeşməbasar-Boyəhməd yolu boyunca səfər edərək həmin yaşayış məntəqələrində gördüklərimizi yazıya köçürmüş, kəndlərimizin müasir simasını, əhalinin məşğuliyyətini yolboyu qarşılaşdığımız insanların söhbətləri və müşahidələrimiz əsasında qələmə alaraq oxucularımızla bölüşmüşdük. Budəfəki yazımızı isə Kəngərli rayonunun yaşayış məntəqələrini əhatə edən avtomobil yolu üzərində səyahətimiz zamanı gördüklərimizə həsr etmişik. Beləliklə, yolumuz qədim Kəngərli yurdunadır.***

# Rahat yol, abad yaşayış məntəqələri, yurda bağlılığın təntənəsi

## *Kəngərli yurdunun bu günü də dünəni kimi daim xatırlanacaq*


Qıvraq qəsəbəsi


Çalxanqala kəndi


Qarabağlar kəndi




Naxçıvan Muxtar Respublikasının ən gənc rayonu olan Kəngərli 2004-cü il martın 19-da yaradılıb. 1995-ci ildən başlayaraq muxtar respublikada aparılan islahatlar regionda ərazi idarəetmə strukturlarının da təkmilləşdirilməsinə öz təsirini göstərib və nəticədə, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Naxçıvan Muxtar Respublikasında Kəngərli rayonunun yaradılması haqqında Azərbaycan Respublikasının Qanununu imzalaması ilə Kəngərli rayonu təşkil edilib. Qanuna görə, Naxçıvan Muxtar Respublikasının Babək rayonunun Böyükdüz, Çalxanqala, Xıncab, Şərur rayonunun isə Qarabağlar, Xok, Qıvraq, Qabıllı, Yurdçu, Şahtaxtı və Yeni Kərki kəndlərini əhatə edən ərazi vahidləri bu rayona daxil edilib, Qıvraq kəndinə qəsəbə statusu verilərək rayon mərkəzinə çevrilib. Biz də elə yolboyu səfərimizə rayon mərkəzi olan Qıvraq qəsəbəsindən başlayırıq...

Hər şeydən əvvəl onu deyim ki, Kəngərli rayonunda yerləşən əksər yaşayış məntəqələri Naxçıvanın qədim tarixə malik yurd yerləridir. Elə Qıvraq qəsəbəsi də həmçinin. Tədqiqatçılara görə, Qıvraq kəngərlilərə aid mülkün adı olub, sonra burada həmin tayfaya mənsub ailələr məskunlaşıblar. 1925-ci ildə aparılan inzibati ərazi bölgüsünə görə Qıvraq 19 kəndi əhatə edən rayon mərkəzi olub və 1930-cu ildə bu rayon ləğv edilib. Bir də 74 il sonra bu yaşayış məntəqəsi rayon mərkəzi statusu alıb. Qıvraq kəndi Sovetlər Birliyi dövründə, əsasən, kənd təsərrüfatının müxtəlif sahələrinin inkişaf etdirildiyi yaşayış məntəqəsi olsa da, daha çox burada yerləşən hərbi hissəyə görə tanınıb. Elə müstəqilliyimizin ilk illərində də muxtar respublikamızın qərb sərhədlərinin qorunmasında buradakı hərbi hissənin böyük rolu olub. Hazırda rayon mərkəzi olan Qıvraq qəsəbəsi son illərdə burada aparılmış quruculuq tədbirləri sayəsində öz simasını tamamilə dəyişib, qəsəbədaxili yollar yenidən qurulub, yeni təhsil, mədəniyyət, səhiyyə müəssisələri yaradılıb, dövlət qurumları üçün yeni inzibati binalar inşa olunaraq istifadəyə verilib. Son onillikdə keçmiş Qıvraq kəndinin şimal hissəsini təşkil edən boş və quru çöllük ərazilərdə rayon mərkəzinə xas infrastruktur salınaraq, ümumilikdə, gözəl bir qəsəbə ansamblının yaradılmasına nail olunub. Ötən il qəsəbədə istifadəyə verilmiş Ticarət-İaşə və Bazar Kompleksi isə burada yaşayan sakinlərə müxtəlif xidmətlərin göstərilməsinə şərait yaradıb. Qəsəbədə olarkən görüşüb söhbət etdiyimiz sakinlərdən Mustafa Bəylərov və Cəbi Əhmədov bildirdilər ki, Qıvraq qəsəbəsi tarixin heç bir dövründə belə şəraitin, gözəlliyin şahidi olmayıb. Burada rayon təşkil olunduqdan sonra hər il qəsəbədə quruculuq və abadlıq işləri aparılıb, yeni tikililər istifadəyə verilib, parklar salınıb, yaşıllıqların həcmi artırılıb. Elə indinin özündə də bu işlər davam etdirilir. Müsahiblərimiz dedilər ki, ötən il burada istifadəyə verilmiş yeni ticarət kompleksi isə sakinlərin daha çox sevincinə səbəb olub. Belə ki, kompleksdə fəaliyyət göstərən şadlıq sarayı, müxtəlif mağazalar, yeməkxana, kənd təsərrüfatı məhsullarının satıldığı qapalı bazar qəsəbədə yaşayan 6000-dən çox sakinin rahatlığını təmin edib. Qeyd etmək lazımdır ki, qəsəbədəki təmizlik də nəzərimizi ilk baxışdan cəlb edən amillərdən oldu. Təyin olunmuş müxtəlif yerlərdə məişət tullantıları qutularının qoyulması, ərazinin daim təmiz saxlanılmasına göstərilən diqqət qəsəbənin gözəlliyini daha da artırıb.

Yurdçu kəndi Kəngərli rayonunda rayon mərkəzinə ən yaxın məsafədə yerləşən kəndlərdəndir. Rayonda kompleks quruculuq tədbirləri ən son bu kənddə aparılıb. Bu ilin ilk ayında kənddə yeni məktəb binasının, kənd və xidmət mərkəzlərinin açılışı olub. Həmin tədbirlərdən sonra Kəngərli rayonu muxtar respublikanın quruculuq xəritəsinə bütün yaşayış məntəqələri abadlaşdırılmış ilk rayon kimi həkk olunub. Qarabağlar kəndinə tərəf uzanan avtomobil yolundan sağa tərəf dönüb kəndə daxil oluruq. Bu yoldan daxil olan hər kəs ilk olaraq burada yaradılmış xidmət mərkəzinin yaraşıqlı binası ilə qarşılaşır. Binanın ətrafı abadlaşdırılıb, səliqə ilə gül-çiçəklər əkilib. Bir zamanlar yolboyu uzanan uçuq, bomboz divarların yerində indi yeniləri tikilib. Kəndin daxili yolları yenidən qurulub, qara örtük salınıb. Kəndin girəcəyində yerləşən məscidin həyətindəki ağsaqqal kişi diqqətimizi çəkir. O, həyətdəki ağaclara qulluq edirdi. Yaxınlaşıb salamlaşırıq, kimliyimizi nişan veririk. Yaşı 70-i keçən Cəlil kişi bizimlə mehriban söhbət edir: “Sovet dövründə kəndlərimizdəki bütün məscidlərin qapılarını qıfıllayıb bağlamışdılar, ya da ki bu cür müqəddəs məkanlardan anbar kimi istifadə edirdilər. İndi şükürlər olsun ki, dövlətimiz dini dəyərlərimizə böyük diqqət yetirir. Muxtar respublikadakı məscidlərimizin böyük əksəriyyəti yenidən qurularaq əhalinin istifadəsinə verilib. Bu, dini və mənəvi dəyərlərimizə böyük qayğıdır”. Cəlil kişi ilə bir xeyli söhbət edirik, kənddə aparılan genişmiqyaslı abadlıq işlərinə görə dövlətimizə minnətdarlığını bildirir.

Sonra yolumuza davam edirik və üz tuturuq rayonun, ümumilikdə isə muxtar respublikamızın ən böyük kənd yaşayış məntəqələrindən biri olan Qarabağlar kəndinə.

XVII əsrdə bütün Yaxın Şərqdə məşhur olan türk səyyahı Övliya Çələbi “Səyahətnamə”sində 50 min nəfərin yaşadığı 10 min evin, 70 məscidin, 40 minarənin, karvansara, hamam və bazarların olduğu Qarabağlar şəhərindən bəhs edir. Tarixi mənbələrdə Qarabağların qədim Roma və Bizans imperiyaları ilə iqtisadi-mədəni əlaqələrini sübut edən məlumatlar var. Bundan əlavə, orta əsrlərdə elm və təhsilin inkişaf etdirildiyi Qarabağlar mədrəsələrində riyaziyyat, təbabət, nücum elmlərinin öyrədilməsi də geniş yayılıbmış. Naxçıvanın Kəngərlilər nəslinin sayılıb-seçilən üzvlərinin pay torpaqlarının olduğu Qarabağlarda indi də məhəllələr aid olduğu tayfaların adları ilə adlandırılır: Bəydilli, Süleymanlı, Ağahəsənli, Cığallı, Turabxanlı, Hacı Baxşəlilər və sair. Dünya əhəmiyyətli Qarabağlar türbəsi bu kənddə yerləşir. Yaşı minillərə dayanan müqəddəs Asnı bulağı kəndin əkin sahələrinə can verir, yerli xammal kimi Sovetlər Birliyi dövründən istehsalına başlanılmış üzlük daş plitələr Rusiya və Avropanın neçə-neçə şəhərlərinin binalarına, park və xiyabanlarına gözəllik bəxş edir. Hələ mən kəndin şimal-qərb istiqamətində yerləşən Daş məhəllədən (buradakı saf daş yataqlarının dərinliyi, deyilənə görə, yüz metrədək gedib çıxır), Naxçıvanda sovet hakimiyyəti yeni qurulan zaman təqiblər üzündən öz mülklərini tərk etmiş xan ailələrindən və hazırda da onların mövcud olan həyat evlərindən, sovetləşmədən sonra Rusiyadan Naxçıvana göndərilən pedaqoji kadrların buradakı təhsil ocaqlarına daha çox yönləndirilməsi məsələlərindən danışmıram. Bunların hər biri ayrılıqda bir mövzu olduğundan bu haqda gələcək yazılarımızda bəhs edəcəyik. O ki qaldı Qarabağlar kəndinin bu gününə, indi burada vəziyyət tamamilə müsbətə doğru dəyişilib. Son illərdə kənddə böyük quruculuq tədbirləri həyata keçirilib, yeni məktəb binaları istifadəyə verilib, kənd və xidmət mərkəzləri yaradılıb. Kənddaxili yollar abadlaşdırılıb. Qarabağlar kəndindən Çalxanqala kəndi istiqamətində uzanan yolda bütün həyətyanı sahələrin ətrafı hasarlanıb, vətəndaşlara məxsus darvaza qapıları dəyişdirilərək yenilənib. 7000 nəfərdən çox sakinin yaşadığı kənddə müxtəliftipli istehsal müəssisəsi – lavaş sexləri, plastik qapı-pəncərə sexi, quşçuluq və balıqçılıq təsərrüfatı, un dəyirmanı, daş məhsulları istehsalı müəssisəsi və sair fəaliyyət göstərir. 2012-ci ildə istifadəyə verilmiş Qıvraq-Qarabağlar-Çalxanqala-Təzəkənd dairəvi avtomobil yolu isə indi təkcə qarabağlarlılara deyil, bu yoldan istifadə edən bütün sürücü və sərnişinlərə, sözün həqiqi mənasında, rahatlıq bəxş edir. Elə bu rahatlığın bizə verdiyi imkanın nəticəsidir ki, təxminən, 15 dəqiqə sonra Çalxanqala kəndinə çatırıq.

Çalxanqala kəndi də Kəngərli rayonunun digər kəndləri kimi öz qədimliyi ilə seçilən yurd yerlərindəndir. Bu kənddə hazırda ermənilərin deportasiya siyasətinin qurbanına çevrilmiş qərbi azərbaycanlıların bir qismi yaşayır. Buradakı sakinlər, əsasən, heyvandarlıq və əkinçiliklə məşğuldurlar. Çalxanqalanın bərəkətli torpaqları onlara təsərrüfatın müxtəlif sahələri ilə məşğul olmağa imkan verib. Dövlətimizin kənd yaşayış məntəqələrinə göstərdiyi qayğını burada da görmək mümkündür. Son illərin quruculuq ünvanlarından olan yeni məktəb binası, kənd mərkəzi, həkim ambulatoriyası çalxanqalalıların rahatlığını təmin edib. Kəndin mərkəzi hissəsində görüşüb söhbətləşdiyimiz 70 yaşlı Ziyad Həsənov, ortayaşlı Faiq Ağəmmədov kəndin müasir günündən razılıqla danışdılar. Ziyad Həsənov ixtisasca mühəndisdir. Hazırda təqaüdçü olan həmsöhbətimiz təsərrüfatla məşğuldur. 4-5 iribuynuzlu mal-qarası, 40 arı ailəsi var. Hər uğurun kökündə zəhmətin dayandığını deyir. Bildirir ki, bu kəndin insanları zəhmətkeşdirlər. Hər kəsin qapısında mal-heyvanı, arı ailəsi var. Dövlətimizə də minnətdarıq ki, torpağımızı əkib-becərməyə, təsərrüfatla məşğul olmağa əlverişli şərait yaradıb. Yeri düşmüşkən, Qıvraq qəsəbəsində, Yurdçu və Qarabağlar kəndlərində gördüyümüz təmizliyi burada da gördük. Rayonun ucqar kəndi olmasına baxmayaraq, burada da lazımi yerlərdə məişət tullantıları qutuları qoyulub və kənddə yerləşən dövlət qurumlarının nümayəndələri ərazilərin təmiz saxlanılması üçün daim sakinlər arasında təbliğat işləri aparırlar.

Dairəvi yolla hərəkət edirik. Növbəti dayanacağımız Təzəkənddir. Yeni quruculuq ünvanları bu kəndin də simasını dəyişib. Kəndin girəcəyində tanış olub söhbətləşdiyimiz Surac Budaqov rabitə işçisidir. Deyir ki, sovet dövründə Təzəkənd və Xıncab ucqar kəndlər olmasa da, həmişə diqqətdən kənarda qalıblar. Kənd sakinləri üçün lazımi şərait yaradılmayıb. Uzun illər kənd camaatı işsizlikdən digər yerlərə üz tutub. Təsərrüfatla məşğul olmağa imkan və şərait olmayıb. Ancaq bizim kəndin sakinləri öz yurdlarına, dəyərlərinə bağlı insanlar olub. Həmsöhbətimiz deyir ki, indi çoxları övladına toy etmək üçün bəzən şəhərə üz tutsa da, bu kəndin insanları toydüyünü öz qapılarında edirlər. Şükürlər olsun, hər şey yaxşıdır. Dövlətimizə minnətdarıq. Naxçıvanın gündən-günə inkişafı gələcəyə daha ümidlə baxmağa imkan verir. Sonradan söhbətimizə qoşulan 60 yaşlı Çingiz Əliyev də bu fikirlərlə razı olduğunu deyir. O, muxtar respublikada əkinçilərin indi daha rahat şəkildə əkib-becərməyə imkanlarının olduğunu bildirir. Hər il muxtar respublikada kənd təsərrüfatı sahələrinin daha da inkişaf etdirilməsi üçün dövlət tərəfindən müxtəlif addımların atılmasını alqışlayır. Sabaha ümidlə baxan bu sadə kənd sakinləri ilə söhbətimizi bitirib Naxçıvan şəhərinə tərəf üz tuturuq...

***Bu da son. Ölkə Prezidentinin 5 il bundan əvvəl imzaladığı sərəncamla yenidən qurulan avtomobil yolunun Kəngərli rayonunun yaşayış məntəqələrini əhatə edən hissəsində hərəkət etdik. Hərəkət etdiyimiz Qıvraq-Qarabağlar-Çalxanqala-Təzəkənd dairəvi avtomobil yolunda yalnız sadə kənd sakinləri ilə görüşüb söhbətləşdik. “Görünən dağa nə bələdçi?” məsəli ilə kəndlərimizin müasir vəziyyətini elə kənardan – yolboyu görüşdüyümüz insanlar və müşahidələrimiz əsasında qələmə aldıq. Gəldiyimiz nəticə bundan ibarət oldu ki, keçmişdə doğma yurdlarına bağlılığı, zəhmətkeşliyi, şücaətləri ilə seçilən kəngərlilər bu ideyaları müstəqil Azərbaycanın onlara bəxş etdiyi müasir imkanlar çərçivəsində indi daha uğurla davam etdirməyi bacarırlar.***

**Səbuhi HƏSƏNOV**

*Dünən Naxçıvan Şəhər Prokurorluğunun təşkilatçılığı ilə Naxçıvan şəhərinin Əliabad qəsəbəsində “Torpaq üzərində mülkiyyət hüququ”, “Valideynlərin hüquq və vəzifələri” mövzularını əhatə edən maarifləndirici tədbir keçirilib.*

## Naxçıvan Şəhər Prokurorluğu hüquqi maarifləndirmə tədbiri keçirib



Tədbiri Naxçıvan Şəhər İcra Hakimiyyətinin şöbə müdiri İsmayıl Gülməmmədov açıb.

Sonra Naxçıvan Şəhər Prokurorluğunun böyük müstəntiqi, kiçik ədliyyə müşaviri İlqar Rzayevin “Valideynlərin hüquq və vəzifələri” mövzusunda məruzəsi dinlənilib. Məruzəçi iştirakçılara Azərbaycan Respublikasının ailə qanunvericiliyi, ölkəmizdə nikah və ailə münasibətlərinin hüquqi baxımdan tənzimlənməsi, valideynlərin hüquqları və vəzifələri, valideynlik hüquqlarının məhdudlaşdırılmasına əsas ola biləcək səbəblər, mövcud qanunvericiliyin müvafiq icra hakimiyyəti orqanları qarşısında qoyduğu tələblər barədə ətraflı məlumat verib.

Naxçıvan şəhər prokurorunun köməkçisi Abdulla Quliyev isə “Torpaq üzərində mülkiyyət hüququ” mövzusundakı məruzəsində Azərbaycan Respublikasının Torpaq Məcəlləsi, bu məcəllədə yer alan “Torpaq sahəsi” anlayışı, ölkəmizdə torpaq sahəsi üzərində dövlət, bələdiyyə və xüsusi mülkiyyət növləri, mülkiyyət hüququnun subyektləri, qanunvericilikdə torpaq münasibətlərinin tənzimlənməsi sahəsində dövlətin səlahiyyətləri, dövlət mülkiyyətində olan torpaqlar barədə iştirakçılara ətraflı məlumat verib, 30 sentyabr 2015-ci il tarixli Azərbaycan Respublikasının Qanunu ilə Azərbaycan Respublikası Cinayət Məcəlləsində edilən bir sıra dəyişikliklər, bu dəyişikliyə əsasən cinayət məsuliyyəti yaradan səbəblər haqda danışıb.

Qeyd edilib ki, adıçəkilən qanun qüvvəyə minənədək Cinayət Məcəlləsinin 188-ci maddəsi “Torpaq üzərində mülkiyyət hüququnu pozma” adlanırdı və bu maddəyə əsasən torpaq üzərində qanunla müəyyən edilmiş mülkiyyət hüququnu pozma, yəni torpaq sahəsini özbaşına tutma, dəyişdirmə və ya becərmə cinayət məsuliyyətinə səbəb olurdu. Cinayət Məcəlləsinə dəyişiklik edilərək 188-ci maddə “Torpaq üzərində mülkiyyət, istifadə və ya icarə hüququnu pozma” adlandırılıb. Həmin maddənin birinci bəndində qeyd edilir ki, qanunla müəyyən edilmiş mülkiyyət, istifadə və ya icarə hüququ olmadan torpaq sahəsini özbaşına hasarlama, becərmə və ya dəyişdirmə, yaxud həmin torpaq sahəsini başqa üsullarla özbaşına tutma cinayət məsuliyyəti yaradır. Bu cinayətin ictimai təhlükəliliyi ondan ibarətdir ki, qeyd edilən əməllərin törədilməsi torpaqdan qanuni istifadə, ona sahiblik, onun barəsində sərəncam vermə torpağın icarəyə verilməsi qaydalarını pozur, torpaqların təyinatının dəyişməsinə səbəb olur. Torpaq daşınmaz əmlak kimi mülkiyyət hüququnun obyektidir.

Sonda tədbir iştirakçılarının sualları cavablandırılıb.

Səbuhi HÜSEYNOV

## Sosialist Əməyi Qəhrəmanının yubileyi qeyd olunub

*İyulun 14-də Sosialist Əməyi Qəhrəmanı Raziyyə Rüstəmovanın anadan olmasının 80 illik yubileyi münasibətilə Şərur rayonunun Qarahəsənli kəndində tədbir keçirilib.*



Çay süfrəsi arxasında keçirilən tədbirdə Şərur Rayon İcra Hakimiyyətinin başçısı İbrahim Məmmədov, Naxçıvan Muxtar Respublikası əmək və əhalinin sosial müdafiəsi naziri Cavid Səfərov, Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Ramilə Seyidova yubilyarı təbrik edərək bildiriblər ki, əmək qabaqcılı, Sosialist Əməyi Qəhrəmanı Raziyyə Rüstəmova 1936-cı il iyulun 14-də Şərur rayonunun Qarahəsənli kəndində anadan olub, yeniyetməlik yaşlarından başlayaraq zəhmətə qatlaşıb, əməksevər bir insan həyatı yaşayıb. 1955-72-ci illərdə Şərur rayonundakı keçmiş SSRİ-nin 50 illiyi adına kolxozda kolxozçu, manqabaşçısı olub, 1972-ci ildən həmin kolxozda üzümçü işləyib. 1965-ci ildə pambıqçılıq sahəsində yüksək əmək göstəricilərinə nail olub. Təsadüfi deyil ki, gənc yaşlarında dövrün ən yüksək fəxri adına – “Sosialist Əməyi Qəhrəmanı” adına layiq görülüb.

Vurğulanıb ki, Raziyyə Rüstəmovanın əmək fəaliyyəti və onun zəhmətinə verilən qiymət ulu öndərimiz Heydər Əliyevin ölkəmizə rəhbərlik etdiyi dövrə təsadüf edir. Bu da səbəbsiz deyil. Çünki ötən əsrin 70-80-ci illərində ümummilli liderimiz zəhmət sahiblərinə, qadınlara böyük dəstək verib və qayğı göstərib. Ulu öndərimizin siyasi kursu bu gün muxtar respublikada uğurla davam etdirilir. Onillər öncə diyarımızın inkişafında xidmətləri olan şəxslər unudulmur, onların yubileyləri qeyd edilir. Bugünkü tədbirin keçirilməsi də zəhmətkeş insanlarımıza dövlət qayğısının ifadəsidir.

Tədbirdə qeyd edilib ki, Raziyyə Rüstəmova yaşadığı zəhmətkeş insan ömrü ilə həyatın bütün xoşbəxtliklərinə çatıb, həmişə öz işindən zövq alıb, ailə səadətinə qovuşub, bu gün də xalqımıza məxsus dəyərlərə sahib olan ağbirçək kimi yeni nəsillərimizə əsl Azərbaycan qadını nümunəsidir.

Sonda yubilyara hədiyyələr təqdim olunub.

Raziyyə Rüstəmova onun ailə üzvləri yubileyin keçirilməsinə görə minnətdarlıqlarını bildiriblər.

**Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin mətbuat xidməti**

*M.S.Ordubadi adına Naxçıvan Muxtar Respublika Kitabxanasında kitabxana işi ilə bağlı seminar keçirilmişdir. Naxçıvan Muxtar Respublikası Mədəniyyət və Turizm Nazirliyinin təşkilatçılığı ilə keçirilən seminarı nazirliyin şöbə müdiri Həsən Kərimov açmışdır.*

## Kitabxana işi ilə bağlı seminar



Qeyd olunmuşdur ki, nazirlik tərəfindən keçirilən yoxlama və reydlərdə muxtar respublikanın kitabxanalarında kargüzarlıq işinin təşkilində çatışmazlıqlara rast gəlinmişdir. Seminarın məqsədi bu nöqsan və çatışmazlıqların tezliklə aradan qaldırılmasına əməli və metodik köməklik göstərməkdən ibarətdir.

Naxçıvan Muxtar Respublikası Mədəniyyət və Turizm Nazirliyinin sektor müdiri İman Alırzayev “Kargüzarlığın aparılması və sənədlərlə iş” mövzusunda çıxış edərək bildirmişdir ki, sənədlərin qəbulu, göndərilməsi, icra edilməsi, icraçıya çatdırılması, icraya nəzarət, daxil olan sənədlərin qeydə alınması, sənədlərin, məktubların hazırlanması və tərtibi, əmrlərin hazırlanması zamanı kargüzarlıq işinin qaydalarına riayət edilməlidir.

Nazirliyin əməkdaşı Cəfər Əsədov “Kadr sənədlərinin və əmək müqavilələrinin işlənmə forması” mövzusunda çıxışında kadr sənədlərinin hazırlanması, şəxsi işlərin aparılması, şəxsi işlərə aid sənədlər, kadr anketlərinin düzgün doldurulması, əmək müqavilələrinin bağlanması şərtləri, məzuniyyətlərin verilməsinin rəsmiləşdirilməsi və uçotunun aparılması, keçirilən tədbirlərin qeydiyyat kitablarına işlənməsi qaydaları haqqında danışmışdır.

Nazirliyin kitabxana işi üzrə aparıcı məsləhətçisi Aygün Hüseynova “Kitabxana işi” mövzusunda çıxış edərək çap məhsullarının kitabxana fonduna daxil olması, uçot kitablarının işlənməsi, kitab fondunun hərəkət yekunları və inventar kitablarının doldurulması və işlənmə qaydaları haqqında məlumat vermişdir.

Seminarda iştirakçıları maraqlandıran suallar cavablandırılmışdır.

**Əli RZAYEV**

## İnsanlara keyfiyyətli tibbi xidmət göstərilib

*Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyi bu ilin ötən dövründə əhalinin sağlamlığının qorunması və tibbi xidmətin səviyyəsinin yüksəldilməsi istiqamətində fəaliyyətini davam etdirmiş, səhiyyə sisteminin yenidən qurulması və müasir standartlara uyğunlaşdırılması, ixtisaslı kadrların hazırlanması, yoluxucu xəstəliklərin profilaktikası, ilkin səhiyyə xidmətinin yeni tələblərə uyğunlaşdırılması diqqət mərkəzində saxlanılmışdır.*



Muxtar respublikada aparılan genişmiqyaslı quruculuq işləri çərçivəsində ötən dövrdə Şərur rayonunun Oğlanqala, Culfa rayonunun Saltaq kəndlərində həkim ambulatoriyaları, Kəngərli rayonunun Yurdçu, Babək rayonunun Xəlilli, Şahbuz rayonunun Daylaqlı kəndlərində feldşer-mama məntəqələri tikilib istifadəyə verilmişdir.

Naxçıvan Muxtar Respublikasının təhsil müəssisələrində oftalmoloq, stomatoloq və ortopedlər tərəfindən kütləvi müayinələr, V-IX sinif şagirdləri arasında ilkin vərəm intoksikasiyasının aşkar edilməsi məqsədilə tuberkulin sınaqları aparılmışdır. Ölkəmizin paytaxtında fəaliyyət göstərən yüksəkixtisaslı həkim briqadalarının dəvət olunaraq muxtar respublikamıza gətirilməsi və aztəminatlı ailələrdən olan xəstələrin başqa ünvanlara üz tutmadan müayinə və cərrahi əməliyyatlarının təşkili də diqqətdə saxlanılmışdır. Belə ki, Mərkəzi Neftçilər Xəstəxanasının Ürək və damar xəstəlikləri şöbəsinin həkim briqadası və Naxçıvan Diaqnostika-Müalicə Mərkəzinin Kardiocərrahiyyə şöbəsi tərəfindən 6 ay ərzində 48 nəfərdə açıq ürək əməliyyatı aparılmışdır. Həmçinin Azərbaycan Milli Oftalmologiya Mərkəzinin, Azərbaycan Tibb Universitetinin, Akademik M.A.Topçubaşov adına Elmi Cərrahiyyə Mərkəzinin tərkibində olan Uşaq Ürək Cərrahiyyə Mərkəzinin yüksəkixtisaslı mütəxəssisləri tərəfindən Naxçıvan Diaqnostika-Müalicə Mərkəzində göz, plastik rekonstruktiv əməliyyatlar həyata keçirilmişdir. Akademik Mirqasımov adına Respublika Klinik Xəstəxanasının 21 nəfərdən ibarət ayrı-ayrı ixtisaslar üzrə həkim briqadası isə yanvar ayında Şərur və may ayında Ordubad Rayon Mərkəzi xəstəxanalarında olmuş, 6091 nəfər tibbi müayinədən keçirilmiş, 161 nəfərdə cərrahi əməliyyat aparılmışdır.

Əhalinin dispanserizasiya işinin yaxşılaşdırılması məqsədilə Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin, Naxçıvan Muxtar Respublikası Mərkəzi Uşaq Xəstəxanasının, Naxçıvan Muxtar Respublikası Doğum Mərkəzinin, Naxçıvan Muxtar Respublika Xəstəxanasının, Diaqnostika-Müalicə Mərkəzinin və rayon mərkəzi xəstəxanalarının yaratdığı həkim briqadaları ucqar dağ və sərhəd kəndlərində olmuş, əhaliyə tibbi xidmət göstərmişdir.

İxtisaslı kadrların hazırlanması bu gün qarşıda duran əsas vəzifədir. Ötən dövrdə bu istiqamətdə tədbirlər davam etdirilmiş, 17 həkim Türkiyə Respublikası Ankara Universitetinin Tibb fakültəsində, İzmit Kocaeli Universitetində, Ərzurum Atatürk Universitetinin xəstəxanasında, İran İslam Respublikası Təbriz Tibb Universitetinin xəstəxanalarında müxtəlif müddətlərə təkmilləşmə kurslarına göndərilmişlər.

**Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin mətbuat xidməti**

## I və IV ixtisas qrupları üzrə qəbul imtahanı olub

*İyulun 15-də Tələbə Qəbulu üzrə Dövlət Komissiyası 2016-2017-ci tədris ili üçün Azərbaycan Respublikasının ali təhsil müəssisələrinə və tam orta təhsil bazasından orta ixtisas təhsili müəssisələrinə qəbul olunmaq istəyən cari ilin məzunları üçün I və IV ixtisas qrupları üzrə qəbul imtahanı keçirib.*



İmtahan respublikanın 11 şəhərində – Bakı, Naxçıvan, Gəncə, Sumqayıt, Mingəçevir, Şəki, Ağcabədi, Göyçay, Şirvan, Lənkəran və Xaçmaz şəhərlərində, ümumilikdə, 47 binada təşkil olunub.

İmtahan bütün binalarda eyni vaxtda – saat $11^{00}$-da başlanıb və 3 saat davam edib. Muxtar respublikada Naxçıvan şəhər 7 və 14 nömrəli tam orta məktəblərdə keçirilən imtahanlarda 1097 abituriyent iştirak edib. İmtahana 106 nəzarətçi-müəllim, 8 imtahan rəhbəri cəlb olunub. Abituriyentlərin öz bilik və bacarıqlarını nümayiş etdirmələri üçün imtahan aparılan yerlərdə normal şərait yaradılıb.

İmtahan başlanmazdan əvvəl məktəblərin önündə həyəcanlı görünən abituriyentlər, onların valideynləri ilə görüşüb həmsöhbət olduq. 14 nömrəli tam orta məktəbin qarşısındayıq. Naxçıvan şəhər 12 nömrəli tam orta məktəbin məzunu Aysun Hacızadəyə yaxınlaşırıq:

– Çox həyəcanlıyam. İmtahandan yaxşı nəticə əldə edəcəyimə inanıram. Çünki imtahan verəcəyim fənlər üzrə yaxşı hazırlaşmışam. Sınaq imtahanlarında 500-dən yuxarı bal toplayırdım. Arzum həkim olmaqdır. İmtahanda yüksək bal toplayıb bu arzuma çatacağam.

Övladları qədər valideynlər də həyəcanlı idilər. Valideynlərdən İradə Əliyeva deyir:

– Bu gün oğlum Tofiq I ixtisas qrupu üzrə imtahan verəcək. Hər bir valideynin arzusudur ki, övladı tələbə adını qazansın. İmtahandan çıxana kimi burada onu gözləyəcəyik. Burada gözləyənlərə nümunəvi iaşə xidmətinin yaradılmasından çox razıyam və bu şəraiti yaradanlara minnətdarlığımı bildirirəm.

Naxçıvan şəhər 7 nömrəli tam orta məktəbin qarşısında da həyəcanlı valideynlər, abituriyentlərlə həmsöhbət olduq. Abituriyentlərdən Nəriman Süleymanov I ixtisas qrupu üzrə imtahan verəcək. O, sınaq imtahanlarında 650-dən yuxarı bal toplayır. Onun dediklərindən:

– Həyəcanlı deyiləm. Hər ay sınaq imtahanlarında iştirak etdiyim üçün artıq imtahan həyəcanına alışmışam. Hədəfim 700 bal toplamaqdır. İnanıram ki, bu nəticəni göstərəcəyəm.

Saatlar $11^{00}$-ı göstərəndə imtahan başladı. İmtahan qurtarana kimi biz də imtahanda müşahidələr apardıq. Naxçıvan şəhər 7 və 14 nömrəli tam orta məktəblərdə keçirilən imtahanların gedişi zamanı abituriyentlər heç bir qayda pozuntusuna yol verməyərək diqqətlərini ancaq test tapşırıqlarına yönəltdilər. İmtahanların gedişinə nəzarət edən imtahan rəhbəri Fail Kazımov bildirdi ki, abituriyentlərin öz bilik və bacarıqlarını göstərmək üçün ayrılan 3 saat ərzində imtahan otağında onların yüksək fəallığını müşahidə edib.

İmtahan başa çatdıqdan sonra bir neçə abituriyentlə həmsöhbət olduq. İmtahandan yenicə çıxmış Şərur rayonunun Düdəngə kənd tam orta məktəbinin məzunu Ümid Əliyev dedi:

– IV ixtisas qrupu üzrə imtahan verdim. Sualları cavablandırmaqda çətinlik çəkmədim. Suallara doğru cavab verdiyimə əminəm. İnanıram ki, tələbə adını qazanacağam.

Abituriyentlərdən Rauf Orucov, Səma Quluzadə, Tağıyar İsmayılov və başqaları imtahanda əsas amil olan sakitliyin tam təmin edildiyini bildirdilər. Bu da onların sualları dəqiq cavablandırmasına imkan verib.

Qeyd edək ki, imtahanda təqdim olunmuş sualların düzgün cavabları TQDK-nın internet saytında yerləşdirilib. Nəticələr elan olunduqdan sonra abituriyentlər imtahan nəticələri ilə TQDK-nın internet saytında və ya iş nömrələrini bütün mobil operatorlardan 7727 nömrəsinə göndərməklə tanış ola biləcəklər.

**Sara ƏZİMOVA**

Xalq yaradıcılığı

# Aşıq sənəti aşiqlərin sənətidir

***Azərbaycan xalqının bədii təfəkkürünün parlaq və zəngin, yüzilliklər boyu keçilən inkişaf yolunun məhsulu olan, rəngarəngliyi ilə sevilən, seçilən aşıq sənəti ədəbiyyat və incəsənət xəzinəmizin qiymətli incilərindən olub, öz mahiyyəti etibarilə həmişə xalq həyatına yaxınlığı ilə seçilib, xalqın gündəlik mübarizəsi və mənəviyyatı ilə vəhdət təşkil edib. Poeziyanı, musiqini, rəqsi, ifaçılığı özündə cəmləşdirən bu incəsənət növünün orijinallığı və sadəliyi onu xalq arasında sevdirib.***



Aşıq sənətinin ilkin nişanələri və ərsəyə gəlməsi haqda məlumatlar "Kitabi-Dədə Qorqud" dastanında öz əksini tapıb. Ozanlar və onların sevimli alətləri olan qopuz haqqında dastanda geniş məlumat verilir. "Qopuz" sözünün etimologiyasına baxsaq, görərik ki, qop qədim türkcədə "ucalıq", "yüksəklik", uz isə "avaz", "sehrli musiqi ahəngi" anlamını verir. Tarixi və etnoqrafik məlumatlara görə, qopuz türk xalq söyləyicilərinin, əsasən, qəhrəmanlıq nəğmələri, dastanları ifa edərkən istifadə etdikləri başlıca simli musiqi aləti olub, kütləvi şənliklərdə, toy-düyünlərdə çalınırdı. Elin müdrik ağsaqqalı Dədə Qorqud oğuznamələr söyləyir, düzüb-qoşur, gənclərə öyüd-nəsihətlər verir, qəhrəmanlıq göstərən ərənləri öyürdü. "Kitabi-Dədə Qorqud" dastanında bu alətin müqəddəsliyindən olduqca geniş söhbət açılır. Dastanda tez-tez rast gəldiyimiz saz sahibinin onu bir başqasına verməsinin qadağan olunması, başqa birinin əlinə dəyməsini günah hesab etməsi və sair bu kimi nümunələr onun dəyərini daha da artırır. Burada onun ilahi cəhətdən də xüsusi bir fərqliliyi diqqətə çatdırılır. Dastanda qeyd edilənlərə əsaslanaraq deyə bilərik ki, ölüm tanrısı qopuzun səsindən Qorqud atanın canını və ya o ətrafda olanların ruhunu almağa gələ bilməzmiş. Qopuz səsinin ecazkarlığı eşidildikcə Dədə Qorqud ölümdən uzaq hesab olunurmuş. Yalnız o susduqdan sonra ölüm onu yaxalaya bilir. Deyilənlərə görə, Qorqud ata öldükdən sonra onun qopuzu illərlə kədərli səslər çıxarıb.

Qopuz bir musiqi aləti kimi əsrlərboyu təkmilləşərək öz yerini saza verib. Saz mizrabla çalınan musiqi alətidir. Onlar ölçülərinə, pərdələrin və simlərin sayına görə üç yerə bölünür: 4-6 simi olan cürə saz, 6-7 simi olan qoltuq saz, 8-9 simi olan ana saz və meydan sazı adlanan tavar sazdır. Əksər hallarda Azərbaycan aşıqları səkkiz və yaxud doqquzsimli sazdan istifadə edirlər. Saz aləti kəllə, qol və çanaq adlanan üç hissədən ibarətdir.

Dastanda tez-tez rast gəldiyimiz ozan, dədə adlandırılan aşıq sözünün mənasına gəldikdə isə qeyd etmək olar ki, dahi bəstəkarımız Üzeyir Hacıbəyli bu sözü ərəb sözü olan "eşq" ilə bağlayıb. Professor Məmmədhüseyn Təhmasib isə onun hazırda az işlənən və qədim türk sözü olan "aş"-dan törədiyini iddia edib. Tarixi məlumatlara istinad etsək, onu XVI əsrdə geniş yayılmış hərbi himnlərlə əlaqələndirə bilərik. Belə ki, türkü adlanan bu türkü-himnlərin yaradıcılarını "aşiq" adlandırırdılar. Sonralar fəxri "aşıq" adı saz-söz sənətkarlarının adına əlavə olunub.

Naxçıvanda da aşıq musiqisi ta qədim zamandan formalaşmağa başlayıb. Bu sənət hazırda özünün ən yüksək inkişaf dövründədir. Aşıq sənəti Naxçıvanın Şərur və Şahbuz bölgələrində daha çox yayılıb.

Zəmanəsinin məşhur aşıqları olan Ağ Aşıq Allahverdi Kosacanlı, Aşıq Süleyman, Aşıq Cəlil, Aşıq Məmmədcəfər, Qonçabəyim, Çobankərəli Aşıq Cəfər, Allahverdi Əliyev, Aşıq Bəhman, Aşıq Nəcəfalı, Aşıq Mirzalı, Aşıq Hidayət, Aşıq Həmid, Kazım Abdullayev, Aşıq Əbülfəz, Aşıq Həmid, Aşıq Bayraməli, Aşıq Ehsan, Aşıq Əzim, Aşıq Vəli, Ordubadlı Kərim, Aşıq Abbas Dəhri, Məmmədxan Məmmədov, Aşıq Həbib və başqaları Naxçıvan aşıq mühitinin yetirmələri olublar. Keçmişdə adları çəkilən bu Naxçıvan aşıqlarının şöhrəti ölkə hüdudlarından kənara çıxıb, onlar İran və Türkiyə kimi xarici ölkələrə musiqi məclislərinə dəvət olunublar.

Hazırda Naxçıvanda Aşıqlar Birliyi fəaliyyət göstərir. Naxçıvan Muxtar Respublikasının Əməkdar artisti, Aşıqlar Birliyinin sədri Tural Bağırov birliyin fəaliyyəti haqqında belə deyir:

– 2009-cu ildən fəaliyyət göstərən birliyin hal-hazırda 22 üzvü var. Onlarla yanaşı, birliyimizə üzv olmaq istəyən, bunun üçün namizədliyini irəli sürən aşıqlar da az deyil. Burada həftənin 4 günü üzvlər toplanır, məşqlər aparılır, konsertə hazırlıq işləri görülür. Həmçinin birliyimizin fəaliyyətinin genişləndirilməsi yolunda yeni fikirlər irəli sürülür, onların müzakirəsi aparılır. Biz muxtar respublikamızda keçirilən xalq mərasimlərində, eyni zamanda dövlət səviyyəli tədbirlərdə də iştirak edirik.

Tural Bağırov onu da qeyd etdi ki, hazırda muxtar respublikamızda bu sənət geniş yayılmaqdadır. Musiqi məktəblərində, Naxçıvan Musiqi Kollecində, həmçinin Naxçıvan Dövlət Universitetinin İncəsənət fakültəsində də saz sinifləri fəaliyyət göstərir və ildən-ilə bu sahədə təhsil almaq istəyən tələbələrin sayı artmaqdadır. Hətta bir çox gənc asudə vaxtını səmərəli keçirmək məqsədilə saz sənətini öyrənmək üçün bizə müraciət edir. Bu, çox sevindirici haldır. Muxtar respublikamızda bu sənətin geniş yayılması üçün hər cür şərait yaradılıb. Bir sözlə, biz dövlətin diqqət və qayğısını üzərimizdə hiss edirik.

Naxçıvan Aşıqlar Birliyinin üzvlərindən Turac Bayramova, Leyla Fətullayeva, Səkinə Kərimova ilə söhbət zamanı onlar aşıq sənətində daha da təkmilləşmələrində və səhnə mədəniyyətlərinin formalaşmasında bu təşkilatın böyük xidməti olduğunu vurğuladılar. Məşq zalında söhbətləşdiyimiz digər bir həvəskar aşıq Gülizar Əhmədli isə illərdir, həvəs göstərdiyi aşıq musiqisi sahəsində ömürlük qərarlaşmaq istədiyini və tezliklə Aşıqlar Birliyinə üzv kimi qəbul edilməyi arzuladığını bildirdi.

*Naxçıvanda bu sahədə inkişaf göz qabağındadır. Hər il keçirilən müxtəlif el şənliklərində saz havalarına geniş yer verilməsi Naxçıvanda aşıq yaradıcılığına göstərilən diqqət və qayğının təzahürüdür.*

**Fatma BABAYEVA**

## Naxçıvan Muxtar Respublikası üzrə 15 iyul 2016-cı il tarixə taxıl biçininin gedişinə dair operativ məlumat

| S/№ | Şəhər və rayonlar | Biçiləcək taxıl sahəsi (hektar) | Biçilən taxıl sahəsi (hektar) | Məhsul istehsalı (ton) | Məhsuldarlıq (sentner) |
|---|---|---|---|---|---|
| 1. | Şərur rayonu | 7637 | 5441 | 17280 | 31,8 |
| 2. | Babək rayonu | 9167 | 7271 | 21893 | 30,1 |
| 3. | Ordubad rayonu | 1949 | 1949 | 5290 | 27,1 |
| 4. | Culfa rayonu | 4466 | 2552 | 6998 | 27,4 |
| 5. | Kəngərli rayonu | 3965 | 3142 | 9167 | 29,2 |
| 6. | Şahbuz rayonu | 1337 | 242 | 634 | 26,2 |
| 7. | Sədərək rayonu | 1947 | 1947 | 6301 | 32,4 |
| 8. | Naxçıvan şəhəri | 1111 | 564 | 1374 | 24,4 |
| **Naxçıvan Muxtar Respublikası üzrə cəmi:** | | **31579** | **23108** | **68937** | **29,8** |

***Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Muzeylərlə əlaqələrin daha da gücləndirilməsi haqqında" 2014-cü il 19 dekabr tarixli Sərəncamına əsasən təşkil olunan "Muzey günləri"nin keçirilməsi tarixi irsimizin öyrənilməsi baxımından əhəmiyyətli və əlamətdar hadisədir. Sərəncama uyğun olaraq muxtar respublikada fəaliyyət göstərən idman federasiyalarının məşqçi-müəllimləri, idmançıları da muzeylərimizi ziyarət edirlər.***

## İdmançıların muzey ziyarətləri davam edir



Dünən Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin təşkilatçılığı ilə Şahmat, Futbol və Yüngül Atletika federasiyalarının idmançıları və məşqçiləri müvafiq olaraq Naxçıvan Dövlət Tarix Muzeyini, Dövlət Bayrağı Meydanı və Muzeyini, Xatirə Muzeyini ziyarət ediblər.

Naxçıvan Muxtar Respublikası Şahmat Federasiyasının üzvlərinə Naxçıvan Dövlət Tarix Muzeyində məlumat verilib ki, 1924-cü ildə fəaliyyətə başlayan muzeydə qədim, orta əsrlər və müasir dövrü əhatə edən 49 minə yaxın eksponat qorunub saxlanılır. 10 şöbədən ibarət olan ekspozisiyada müxtəlif tarixi dövrlərə aid məişət əşyaları və əmək alətləri, muxtar respublika ərazisində aşkar olunan mis və gümüş pullar, xalçaçılıq, zərgərlik, misgərlik, dulusçuluq və nəqqaşlıq sənəti nümunələri, xalq ustalarının müxtəlif əl işləri, eləcə də Naxçıvanın müasir inkişafını əks etdirən zəngin materiallar nümayiş etdirilir.

Futbol Federasiyasının idmançıları və məşqçiləri Dövlət Bayrağı Meydanı və Muzeyini ziyarət ediblər. Ziyarətçilərə bildirilib ki, Dövlət Bayrağı Meydanı və Muzeyi Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2014-cü il 22 avqust tarixli Sərəncamına əsasən yaradılıb və 2014-cü il noyabrın 17-dən fəaliyyətə başlayıb. Muzeydə Naxçıvanda müxtəlif dövrlərdə qəbul edilmiş bayraqlar və dövlət atributları nümayiş etdirilir.

Vurğulanıb ki, Azərbaycan Xalq Cümhuriyyəti dövründə təsis edilmiş üçrəngli bayrağımız ikinci dəfə ulu öndər Heydər Əliyev tərəfindən 1990-cı il noyabrın 17-də Naxçıvanda qaldırılıb. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2014-cü il 17 noyabr tarixli Sərəncamı ilə hər il noyabr ayının 17-si Naxçıvan Muxtar Respublikasının Dövlət Bayrağı Günü kimi qeyd edilir.

Xatirə Muzeyinin ziyarətçiləri olan Yüngül Atletika Federasiyasının idmançılarına isə məlumat verilib ki, Azərbaycanın suverenliyi və ərazi bütövlüyü uğrunda döyüşlərdə həlak olmuş naxçıvanlıların xatirəsinin əbədiləşdirildiyi muzeydə şəhidlərin fotoşəkilləri, şəxsi sənədləri, döyüş fəaliyyətlərini əhatə edən materiallar, eyni zamanda qəhrəmanlıq tariximizin müxtəlif dövrlərinə aid kitablar nümayiş etdirilir. Eksponatların xalqımızın soyqırımı tarixi üzrə dövrləşdirilərək yerləşdirilməsi ziyarətçilərin muzeylə daha yaxından tanış olmasına imkan yaradır.

## Paralimpiya Federasiyasının idmançıları Ağbulaq İstirahət Mərkəzində olublar

Xəbər verdiyimiz kimi, hər həftə muxtar respublikada fəaliyyət göstərən idman federasiyaları üzvlərinin Ağbulaq İstirahət Mərkəzində istirahətləri təşkil olunur. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Gənclər Fondu, Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi, Paralimpiya Federasiyasının birgə təşkilatçılığı ilə iyulun 14-15-də Ağbulaq İstirahət Mərkəzində fiziki imkanları məhdud idmançıların istirahəti təşkil edilib.



Mərkəzdə Paralimpiya Federasiyasının idmançılarını təşkilatçı qurumların nümayəndələri qarşılayıblar. Onlara mərkəz haqqında geniş məlumat verilib. Nahar yeməyindən sonra proqrama uyğun olaraq idmançılar üçün müxtəlif idman oyunları təşkil edilib. Böyük marağa səbəb olan oyunların ardınca onların Ağbulaq kəndi ərazisindəki təbiət abidələri ilə tanışlığı və "Ağbulaq" bulağına yürüşü olub. Şam yeməyindən sonra isə federasiyanın idmançıları üçün vətənpərvərlik mövzusunda sənədli film nümayiş etdirilib.

İstirahətin ikinci gününə səhər gimnastikası ilə başlayan fiziki imkanları məhdud idmançılar əyləncəli oyunlarda iştirak edib, vətənpərvərlik mövzusunda mahnılar dinləyiblər. Nahar yeməyindən sonra idmançıların Ağbulaq İstirahət Mərkəzində ikigünlük istirahətinə yekun vurulub və onlar Naxçıvan şəhərinə qayıdıblar.

**Ceyhun MƏMMƏDOV**

ŞƏRQ qapısı
Baş redaktor: TURAL SƏFƏROV

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Rauf Əliyev
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1050. Sifariş № 546